

# Şərq qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 41 (24.178)

*3 mart 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu tarixi mərhələsini yaşayır

### Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü olub

### *Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib*

Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edir.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahmanı, Keniyanın Baş naziri Uakylif Musalia Mudavadini, Tanzaniyanın vitse-prezidenti Filip İsdor Mpanqonu, Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanı, Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini, Qabonun vitse-prezidenti xanım Rouz Kristian Ossuka Rapondanı, BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçi, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi, Liviyanın Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfini, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi qarşıladı.





Sonra birgə foto çəkdirildi.

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** tədbiri açaraq dedi:

– Zati-aliləri, hörmətli nümayəndələr, xanımlar və cənablar.

Sizin hamınızı Bakıda, Azərbaycanda, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun sammit səviyyəli görüşündə ürəkdən salamlayıram. Üç ildən bir qədər çox əvvəl elə həmin bu zalda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi. Qürurla deyə bilərəm ki, bu Hərəkat son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm aktorlardan biri olub. Müzakirələrimizə başlamazdan əvvəl sizin diqqətinizi bir məqama cəlb etmək istəyirəm. Hamınız bildiyi kimi, bir neçə həftə bundan əvvəl Türkiyədə və Suriyada dağıdıcı zəlzələ baş verib. Müasir dövrün ən faciəli təbii fəlakətlərindən biri olan bu zəlzələ on minlərlə insanın həyatına son qoyub. Zirvə görüşünün bütün iştirakçılarını ayağa qalxmağa və həlak olanların xatirəsini bir dəqiqəlik sükutla anmağa dəvət edirəm. Allah rəhmət eləsin! Sağ olun!

Bu dəhşətli fəlakətlə əlaqədar dərindən kədərləndiyimizi bildirir, həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzu edirik.

İndi isə müzakirələrə başlaya bilərik. İclası açmazdan əvvəl onun gündəliyi təsdiq edilməlidir. Sammit səviyyəli görüşün ilkin gündəliyi nümayəndə heyətləri arasında yayılıb. Belə hesab edə bilərəmmi ki, gündəlik barədə etirazlar yoxdur? Sağ olun! Beləliklə, sammit səviyyəli görüşün gündəliyini təsdiq olunmuş hesab edirəm. İndi isə mən Qoşulmama Hərəkatının sədri kimi çıxış edəcəyəm.

## Prezident İlham Əliyevin çıxışı





– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun pandemiyadan sonrakı bərpaya həsr olunmuş sammit səviyyəli görüşündə salamlayıram.

2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrliyinə başladı. Sədrliyimizin müddəti yekdil qərarla daha bir il uzadıldı. Biz Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarıq.

Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu.

Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdük. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Mən həmin Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı.

Xüsusi sessiya 2020-ci ilin dekabr ayında keçirilib və tədbirdə 70-dən çox dövlət və hökumət başçısı çıxış edib. Xüsusi sessiyada beynəlxalq həmrəyliyin artırılmasının zəruriliyi vurğulanıb, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib.

Biz bəzi varlı ölkələrin həyata keçirdiyi "peyvənd millətçiliyi"ni xüsusilə pandemiya ilə mübarizədə ciddi maneə kimi qiymətləndirdik. Nəticədə, Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu.

Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi.

Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib.

Azərbaycan Hərəkatın institusional inkişafına güclü dəstək verir. Biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib.

Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək.

Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır.

2021-ci ildə Belqradda keçirilən Yüksək Səviyyəli yubiley görüşündə mən Hərəkatın COVID-19-dan sonrakı dövrlə bağlı mövqeyini formalaşdırmaq məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli görüşünün keçirilməsi ideyasını irəli sürdüm. Bunu nəzərə alaraq mən bu Zirvə toplantısını çağırdım və inanıram ki, bu tədbir yeni meydana çıxan qlobal əhəmiyyətli məsələləri müzakirə etmək imkanı yaradacaq.

Son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturası hazırda köklü dəyişikliklərlə üzləşir və multilateralizm təhlükə altındadır. Beynəlxalq hüququn norma və prinsiplərinin aşınması beynəlxalq düzəni daha da təhdid edir.

Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir.

Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi olur, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir.

Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir.

Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq.

Dünyada uzun illərdir, müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir. Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun.

Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram. Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik.

Pandemiya "2030: Davamlı İnkişaf Məqsədləri"nin icra olunmasına mənfi təsir edib. Bundan əlavə, hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir.

Bu məqsədlə biz BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif etmişik. Bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Mən Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıram.

Biz suverenliyə, milli sahibliyə, bərabərliyə və qarşılıqlı mənafeyə hörmət prinsiplərini rəhbər tutan Cənub-Cənub əməkdaşlığını daha da gücləndirməliyik. Həmin gündəlik Cənub ölkələrinin özləri tərəfindən öz milli ehtiyac və prioritetlərinə uyğun olaraq təşkil edilib. Bu, kənardan məcburi qaydada qoyulmuş bir gündəlik deyil.

İqlim dəyişikliyi bəşəriyyət üçün digər bir təhdiddir və su qıtlığı, ərzaq çatışmazlığı və məcburi miqrasiya kimi ciddi problemlərə səbəb olur.

İnkişaf edən kiçik ada ölkələri daha çox diqqətəlayiqdir. Çünki onlar iqlim dəyişikliyinin təsirlərinə daha həssas olduqları üçün yer üzündən silinmək təhlükəsi ilə üzləşiblər.

COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcək. Mən burada iki qlobal çağırışı bəyan edirəm.

*Ardı 2-ci səhifədə*

Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır. İnanıram ki, Qoşulmama Hərəkatının üzvləri və beynəlxalq ictimaiyyətin digər üzvləri Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək və bizə qoşularaq postpandemiya bərpası dövründə ehtiyacı olan ölkələrə dəstək verəcəklər.

Xanımlar və cənablar.

Daha öncə də qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Məsələn, Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır.

2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi.

İşğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndi Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmış, bütün mədəni və dini abidələr talan və qarət edilmişdir. Azərbaycanın işğaldan azad olunmuş əraziləri klassik urbisid, kultursid və ekosid nümunələridir. 2020-ci ilin sonundan etibarən Qoşulmama Hərəkatına üzv ölkələr də daxil olmaqla, bir çox ölkədən minlərlə xarici diplomat, jurnalist, QHT üzvü və siyasətçi işğaldan azad olunmuş əraziləri ziyarət edərək Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin şahidi olmuşdur.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan hökuməti 2021-2022-ci illərdə yenidənqurma işlərinə 4 milyard ABŞ dollarına yaxın pul xərcləyib. Bu il biz bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsait ayırmağı planlaşdırırıq. Biz müasir şəhərsalma – "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarından istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm.

Münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib.

Bu fürsətdən istifadə edərək mən Qoşulmama Hərəkatına üzv ölkələrə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməkdə göstərdikləri qətiyyətə görə təşəkkür etmək istəyirəm.

Sonda isə sizi əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin gücləndirilməsi üzrə səylərini əsirgəməyəcəkdir.



Təşəkkür edirəm.

***

Sonra BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti **Tsaba Körösi** çıxış edərək Zirvə görüşündə iştirak üçün dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Hazırda bəşəriyyətin dünyada yaşanan müxtəlif proseslərin, o cümlədən COVID-19 pandemiyasının ciddi təsirlərinə məruz qaldığını vurğulayan Tsaba Körösi bu problemlərin qarşısını almaq üçün qarşılıqlı əlaqələrin genişləndirilməsi baxımından belə görüşlərin önəmini qeyd etdi. Bildirdi ki, pandemiya yaşadığımız əsrin ən böyük səhiyyə böhranını yaratdı. Bu göstərdi ki, pandemiyadan yeganə çıxış yolu təkcə sərhədlər daxilində deyil, beynəlxalq səviyyədə həmrəyliyin inkişaf etdirilməsidir.

Azərbaycanın COVID-19-a qarşı mübarizə istiqamətində irəli sürdüyü təşəbbüslərin önəmini vurğulayan Tsaba Körösi dedi: "Azərbaycan tərəfindən bununla bağlı irəli sürülən təşəbbüslər, həmçinin peyvəndlərə vaxtında və ədalətli qaydada çıxış və əlçatanlıq da qarşılıqlı dəstəyin bir nümunəsidir. Qoşulmama Hərəkatı bu böhrana cavab vermək və pandemiyanın nəticələrini aradan qaldırmaq üçün qlobal həmrəylik göstərərək təşəbbüslər irəli sürmüşdür".

***

BMT-nin Cenevrədəki bölməsinin baş direktoru **Tatyana Valovaya** Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin adından çıxış edərək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə ev sahibliyinə görə Prezident İlham Əliyevə və Azərbaycana minnətdarlığını ifadə etdi. XXI əsrdə çoxtərəfli əməkdaşlıq baxımından Qoşulmama Hərəkatının əhəmiyyətinin daha da artdığını vurğulayan T.Valovaya Hərəkatın dayanıqlı inkişaf, iqlim dəyişikliyinə qarşı mübarizə və sülhün bərqərar olunması istiqamətində aktiv fəaliyyət göstərdiyini bildirdi. O, dünyada 6,5 milyon insanın ölümünə, bərabərsizliyin daha da güclənməsinə, böyük depressiyaya və işsizliyə səbəb olan pandeminyanın bir sıra sahələrə, xüsusilə təhsilə sarsıdıcı təsirlər göstərdiyini qeyd etdi. Postpandemiya dövründə qlobal əməkdaşlığın, xüsusilə gənclər üçün lazımi şəraitin yaradılmasının və onların arasında əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edən BMT rəsmisi bu baxımdan institusional tədbirlərin görülməsinin vacib rol oynadığını bildirdi, Azərbaycanın irəli sürdüyü təşəbbüsləri xüsusi vurğulayaraq dedi: "Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentləri arasında əlaqələrin gücləndirilməsinə xidmət edən Parlament Şəbəkəsinin yaradılması ilə bağlı Azərbaycanın təşəbbüsü təqdirəlayiqdir. Azərbaycanın gənclərlə iş sahəsində – 2022-ci ilin iyulunda Qoşulmama Hərəkatının Gənclər Sammitinin keçirilməsi və Hərəkatın Gənclər Şəbəkəsinin təsis olunması ilə bağlı təşəbbüslərini də təqdirəlayiq hesab edirəm".

***

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Qebreyesusun** videomüraciəti dinlənildi. T.Qebreyesus videomüraciətində Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. Qoşulmama Hərəkatına üzv ölkələrin pandemiyadan əziyyət çəkdiyini vurğulayan Baş direktor bildirdi ki, postpandemiya dövründə daha təhlükəsiz və sağlam sistemlərin qurulmasında Hərəkatın üzvlərinin kollektiv təcrübəsindən faydalanmaq çox zəruridir. Ümumdünya Səhiyyə Təşkilatı beynəlxalq səviyyədə pandemiyaya hazırlıq və cavab tədbirləri ilə bağlı sənədlərin qəbul olunması istiqamətində Qoşulmama Hərəkatına üzv ölkələrin səylərinin gücləndirilməsinə dair müraciət edib. Tedros Adhanom Qebreyesus Ümumdünya Səhiyyə Təşkilatının maliyyələşdirilməsinə fəal qoşulmağın zəruriliyini və yerli istehsalın qurulmasına sərmayə qoyulmasının prioritet hədəflər olduğunu vurğuladı.

***

Zirvə görüşü işini plenar sessiya ilə davam etdirdi.

***

Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** qeyd etdi ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, həmrəylik və sıx birlik daha da möhkəmlənib. Təşkilatın tarixində ilk dəfə onun parlament və gənclər şəbəkələri yaradılıb.

Özbəkistan lideri xüsusi vurğuladı: "Bütün bu nailiyyətlər mənim hörmətli həmkarım İlham Heydər oğlunun böyük səyləri və təşəbbüsləri, üzv ölkələrin maraqları naminə onun praktiki fəaliyyəti sayəsində mümkün olub".

Özbəkistan dövlətinin başçısı Azərbaycan Prezidentinin ölkə regionlarının bərpasına yönəlmiş səmərəli səylərinə də diqqəti cəlb edərək dedi ki, burada tarixi ədalət, sosial-iqtisadi infrastruktur bərpa olunub, yeni obyektlər ucaldılıb, əhali üçün əlverişli şərait formalaşıb.

Şavkat Mirziyoyev bir sıra təşəbbüslər irəli sürüb, o cümlədən 2030-cu ilə qədər olan dövrdə Senday çərçivə proqramının əsas hədəflərinə nail olmaq üzrə Qlobal Platforma bazasında fəaliyyətin daha da gücləndirilməsini, həmçinin Qoşulmama Hərəkatının monitorinq və elmi tədqiqatlar üzrə xüsusi şəbəkəsinin yaradılmasını da təklif edib. Bu qurum Özbəkistanda yerləşə və Qoşulmama Hərəkatının sammitləri ərəfəsində müntəzəm olaraq təşkilatın iqtisadi forumlarını keçirə bilər.

Özbəkistan Prezidenti BMT-də islahatlar məsələsinə toxunaraq bildirdi ki, Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatının üzvlərinin daimi yeri olmalıdır.

***

Zirvə görüşündə iştirak üçün dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürünü bildirən İraq Prezidenti **Əbdüllətif Camal Rəşid** qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin, qida təhlükəsizliyinin təmin olunmasının vacibliyini diqqətə çatdırdı. Ölkəsində bu istiqamətlərdə atılan addımlardan bəhs edən dövlət başçısı bildirdi ki, İraq hökuməti iqlim dəyişikliyi məsələlərinə də xüsusi önəm verir. İqlim dəyişikliyi sosial sabitliyə də birbaşa təsir göstərir. Ona görə də bu istiqamətdə ictimai maarifləndirmə işləri daha da genişləndirilməlidir. İqlim dəyişikliyinin nəticələri kollektiv şəkildə aradan qaldırılmalı və risklərin azaldılması istiqamətində addımlar atılmalıdır.

Ölkəsinin vaxtilə müharibələrdən, silahlı toqquşmalardan, dağıntılardan, eyni zamanda insan ölümlərindən əziyyət çəkdiyini xatırladan Əbdüllətif Camal Rəşid qeyd etdi ki, sülh ancaq dialoq və əməkdaşlıq vasitəsilə mümkündür. Bu baxımdan İraq regional təhlükəsizlik, eyni zamanda qlobal enerji təhlükəsizliyinə də töhfə verməyə hazırdır.

Qoşulmama Hərəkatının prinsiplərindən söz açan İraq Prezidenti dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmətin, təcavüzkar hərəkətlərdən çəkinməyin, digər ölkələrin daxili məsələlərinə müdaxilə etməməyin, birgə sülh şəraitində yaşamağın və digər prinsiplərin bu gün də aktual olduğunu diqqətə çatdırdı.

***

Liviya Dövləti Prezident Şurasının sədri **Məhəmməd Yunis Əl-Mənfi** Azərbaycanın Qoşulmama Hərəkatının inkişafına və beynəlxalq arenada onun nüfuzunun artmasına göstərdiyi səylərə və verdiyi töhfələrə, habelə bu təşkilatda uğurlu sədrliyinə görə təşəkkürünü bildirdi. O qeyd etdi ki, COVID-19 pandemiyası bəşəriyyət üçün beynəlxalq münaqişələrin çoxundan daha ciddi nəticələr doğurub. Prezident Şurasının sədri bütün dövlətləri Liviyada davam edən münaqişənin həllinə və bu ölkənin inkişafına dəstək verməyə çağırıb. Məhəmməd Yunis Əl-Mənfi əminliklə bildirdi ki, Liviya qarşılıqlı münasibətlərin inkişafına yönəlmiş birgə əməkdaşlığa sədaqətini saxlayır.

***

Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** koronavirus pandemiyasının nəticələrinin bütün ölkələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafına ciddi təsir göstərdiyini vurğuladı. Türkmənistan Prezidenti pandemiyanın nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətlərin öz səylərini birləşdirməsinin və bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməsinin önəmini qeyd etdi. Sərdar Berdiməhəmmədov bu məqsədlə fikir mübadiləsinin aparılması, ortaq mexanizmlərin müəyyənləşdirilməsi üçün birgə platformanın yaradılması təklifini irəli sürdü. Dövlət başçısı üzv ölkələrin parlamentləri və aidiyyəti qurumları ilə yanaşı, elm və təhsil müəssisələrinin də bu prosesə cəlb olunmasının vacibliyini vurğuladı.

Prezident Sərdar Berdiməhəmmədov Qoşulmama Hərəkatına uğurla sədrliyinə, qarşıda duran hədəflərə nail olunması istiqamətində irəli sürdüyü mühüm təşəbbüslərə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirdi.

***

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Jelka Tsviyanoviç** Zirvə görüşündə iştirak üçün dəvətə görə Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. O, Qoşulmama Hərəkatının yarandığı zaman dünyaya lazım olan sülh, sabitlik və əməkdaşlıq kimi məsələlərin bu gün də öz aktuallığını saxladığını söylədi. Koronavirus pandemiyasının uzunmüddətli mənfi təsirlərə səbəb olduğunu deyən Jelka Tsviyanoviç insan itkilərini, səhiyyə sistemində və digər sahələrdə yaranan çətinlikləri qeyd etdi. Həmçinin bildirdi ki, iqtisadi problemlər qlobal səviyyədə və dövlətlərdə, xüsusilə yoxsul ölkələrdə daha mürəkkəb tənəzzülə səbəb olub.

Qoşulmama Hərəkatının rolunu təqdirəlayiq hesab edən Jelka Tsviyanoviç Hərəkatın koronavirus pandemiyasının qarşısının alınması istiqamətində böyük səylər göstərdiyini vurğuladı. Qeyd etdi ki, COVID-19 pandemiyasından sonra bir çox digər mövzular da aktualdır. Böyük çağırışlar var, çətinliklər heç də azalmayıb, yaxud da yox olmayıb. O məhz bu səbəbdən Sammitin dünya ictimaiyyətinin diqqətini postpandemiya dövründə bərpa proseslərinə cəlb edəcəyinə əminliyini bildirdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri vurğuladı ki, beynəlxalq düzən sülh və sabitlik prinsipləri əsasında qurulmalıdır. Qoşulmama Hərəkatı qlobal dəyişikliyə rəğmən bu işi davam etdirə bilər. Bu baxımdan Hərəkata üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsi çox vacibdir.

***

Zirvə görüşü Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun sədrliyi ilə plenar sessiyalarla davam etdi.

***

Qeyd edək ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin, o cümlədən Bosniya və Herseqovina, Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin – Kuba, Qabon, Tanzaniyanın Vitse-prezidentləri, Əlcəzair və Keniyanın Baş nazirləri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri – Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili,

Ardı 3-cü səhifədə

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Baş direktoru Antonio Vitorino, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri və digərləri, eyni zamanda nazirlər, nazir müavinləri, səfirlər və sair qatılıblar.

Hazırda Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı isə məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Dünyada nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi 2019-cu ildən etibarən üç il müddətinə həyata keçirməyə başlayıb. Azərbaycanın sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı zamanda Bakı qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu. Məhz Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Həmin ilin dekabrında isə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən Xüsusi Sessiyası təşkil olundu. Bu sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab edilir. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də Qoşulmama Hərəkatının təsisatlanması məsələsidir. Ölkəmizin sədrliyi dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub. Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Hərəkata üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Təsadüfi deyil ki, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alındı.

Qoşulmama Hərəkatı ölkələrinin Azərbaycana tam etimadının nəticəsidir ki, üzv dövlətlərin yekdil rəyinə əsasən ölkəmizin təşkilata sədrliyi daha bir il, yəni 2023-cü ilin sonuna kimi uzadılıb. Bu gün Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü bir daha onu göstərir ki, Azərbaycan təşkilatın fəaliyyətinə mühüm töhfələr verir. Eyni zamanda Azərbaycanın növbəti dəfə qlobal məsələlərin müzakirə olunduğu mühüm toplantıya ev sahibliyi etməsi ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin təzahürüdür.

## Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.

Türkmənistan Prezidenti Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə aktiv şəkildə fəaliyyət göstərdiyini vurğuladı və bu münasibətlə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Sərdar Berdiməhəmmədov beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında Hərəkatın mühüm rol oynadığını qeyd etdi. O həmçinin pandemiyaya qarşı mübarizəyə Qoşulmama Hərəkatı çərçivəsində xüsusi diqqətin yetirildiyini vurğuladı.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirakına görə Prezident Sərdar Berdiməhəmmədova təşəkkürünü bildirdi, bu Zirvə görüşü əsnasında ikitərəfli əlaqələrimizin müzakirəsi üçün yaxşı imkanların da olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Türkmənistanla ikitərəfli əlaqələrin inkişafına daim xüsusi diqqət yetirdiyini qeyd etdi, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, mədəni, humanitar sahələrdə əlaqələrin inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin başa çatmaqda olduğunu qeyd etdi. Ölkəmizin Hərəkatın beynəlxalq münasibətlərdəki rolunun artırılmasında maraqlı olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın bu xüsusda bir sıra təşəbbüslərlə çıxış etdiyini dedi. Eyni zamanda diqqətə çatdırdı ki, bu gün dünya düzəninin yenidən formalaşması prosesi baş verir və Qoşulmama Hərəkatı bu prosesdə öz rolunu oynamalıdır.

Ölkələrimiz arasında mövcud olan çox sıx siyasi əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycanla Türkmənistanın enerji, pambıqçılıq, nəqliyyat, investisiyalar və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlara malik olduqlarını vurğuladı.

Dövlətimizin başçısı əlavə etdi ki, Azərbaycan özünün nəqliyyat-tranzit potensialını artırır və bu, gələcəkdə Türkmənistan mallarının da ölkəmizin ərazisindən daşınması üçün əlavə imkanlar yaradır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini qəbul edib.



Tsaba Körösi Qoşulmama Hərəkatının sammitinə dəvətə görə minnətdarlığını bildirdi, Hərəkatın beynəlxalq münasibətlər sistemində mühüm rola malik təsisat olduğunu qeyd etdi. O, Azərbaycanın sədrliyi dövründə Hərəkatın BMT Baş Assambleyasında və ümumiyyətlə, beynəlxalq münasibətlərdə rolunun daha da gücləndiyini dedi, ölkəmizin Hərəkatın təsisatlanması üçün praktiki təkliflərlə çıxış etdiyini vurğuladı. Tsaba Körösi, həmçinin BMT Baş Assambleyasına həm maliyyə nöqteyi-nəzərindən, həm də kadrlar vasitəsilə verdiyi dəstəyə görə təşəkkürünü ifadə etdi, Baş Assambleyanın ofisində azərbaycanlı mütəxəssisin də çalışmasını müsbət amil kimi dəyərləndirdi.

Dövlətimizin başçısı, öz növbəsində, Qoşulmama Hərəkatının Zirvə görüşündə iştirakına görə Tsaba Körösiyə təşəkkürünü bildirdi, BMT-nin ali orqanları, o cümlədən Baş Assambleya ilə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiyini qeyd etdi. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı xüsusi sessiyasının keçirildiyini xatırladı.

Azərbaycanın böyükmiqyaslı mina problemi ilə üzləşdiyini, müharibənin başa çatmasından sonra – 2020-ci il noyabrın 10-dan indiyədək 300-ə yaxın vətəndaşımızın mina partlaması səbəbindən həlak olduğunu və ya yaralandığını bildirən dövlətimizin başçısı hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev ölkəmizin minatəmizləmə üzrə yeni Dayanıqlı İnkişaf Məqsədinin təsis edilməsi təşəbbüsü ilə çıxış etdiyini, BMT çərçivəsində də bununla bağlı müzakirələrin aparılmasının vacibliyi vurğuladı, BMT-nin ali orqanlarında islahatların aparılması məsələsinə toxundu.

Görüşdə qlobal iqlim dəyişikliyi, su problemi və ərzaq təhlükəsizliyi məsələləri ətrafında da fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzairin Baş naziri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahman ilə görüşüb.

Prezident İlham Əliyev Əlcəzair Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı. Dövlətimizin başçısı səfər çərçivəsində Azərbaycanla Əlcəzair arasında ikitərəfli əlaqələrin perspektivlərinə dair müzakirələrin də aparıldığını diqqətə çatdırdı.

Baş nazir Əlcəzair Prezidenti Abdelmacid Tebbunun səmimi salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını və ölkəmizə səfər etməklə bağlı dəvətini Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünə dəvətə görə minnətdarlığını bildirən Baş nazir bu tədbirin yüksək səviyyədə təşkilinə və Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyinə görə Prezident İlham Əliyevi təbrik etdi, ölkəmizin sədrliyi sayəsində Hərəkatın beynəlxalq münasibətlərdə oynadığı rolun daha da gücləndiyini vurğuladı.



Ayman Benabderrahman Əlcəzairin Azərbaycanla qarşılıqlı münasibətlərin hərtərəfli inkişafında maraqlı olduğunu dedi. Qeyd etdi ki, hazırda parlamentlərarası əməkdaşlıq və ədliyyə sahəsində əlaqələrimiz inkişaf edir, eyni zamanda Xarici İşlər nazirlikləri səviyyəsində siyasi dialoq mexanizmi başlayıb və yaxın vaxtlarda siyasi məsləhətləşmələr keçiriləcək.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin bu ilin sonunda başa çatacağını vurğulayan dövlətimizin başçısı dedi ki, ölkəmiz sədrliyi dövründə Hərəkatın təsisatlanması istiqamətində fəal şəkildə çalışıb.

Prezident İlham Əliyev, həmçinin azərbaycanlı mütəxəssislərin, o cümlədən neftçilərin, geoloqların və mədəniyyət xadimlərinin Əlcəzairdə uğurla fəaliyyət göstərdiklərini dedi.

Baş nazir Ayman Benabderrahman da, öz növbəsində, Əlcəzair müstəqillik qazanandan sonra azərbaycanlı mütəxəssislərin ölkəsinin inkişafına verdiyi töhfələrin yüksək qiymətləndirildiyini vurğuladı.

## Azərbaycan Prezidenti İlham Əliyev Liviya Dövləti Prezident Şurasının sədri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Liviya Dövləti Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfi ilə görüşüb.

Dövlətimizin başçısı Məhəmməd Yunis Əl-Mənfiyə Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirakına görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Liviya arasında siyasi əlaqələrin çox yaxşı olduğunu, ikitərəfli münasibətlərin inkişafı üçün geniş imkanların mövcudluğunu qeyd etdi.

Azərbaycanın xarici siyasətində Ərəb dövlətləri ilə əlaqələrin inkişafının prioritetlərdən biri olduğunu deyən dövlətimizin başçısı Ərəb Dövlətləri Liqasının ötən il Əlcəzairdə keçirilən Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı, bu tədbirin Azərbaycanın Ərəb dövlətləri ilə münasibətlərin genişləndirilməsi işinə mühüm töhfə verdiyini vurğuladı.

Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünün yüksək səviyyədə təşkil olunduğunu və onun böyük əhəmiyyət kəsb etdiyini deyən Məhəmməd Yunis Əl-Mənfi bu tədbirə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, ölkəmizin sədrlik dövründə bu Hərəkatın inkişafı üçün ciddi səylər göstərdiyini və töhfələr verdiyini qeyd etdi.

Liviya Dövləti Prezident Şurasının sədri dövlətimizin başçısının Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilmiş sammitindəki çıxışını diqqətlə dinlədiyini məmnuniyyətlə vurğuladı.

Ölkəsinin Azərbaycanla əlaqələrdə maraqlı olduğunu qeyd edən Məhəmməd Yunis Əl-Mənfi dedi ki, beynəlxalq gündəlikdə duran bir çox məsələlərə münasibətdə Azərbaycanın və Liviyanın mövqeləri üst-üstə düşür.

Görüşdə münasibətlərimizin müxtəlif sahələrdə inkişafı üçün birgə səylərin davam etdirilməsinin vacibliyi bildirildi, bu xüsusda qarşılıqlı sərmayələr, tikinti, enerji sahələrində əməkdaşlığın önəmi qeyd olundu. Həmçinin Hökumətlərarası Komissiyanın fəaliyyətinin aktivləşdirilməsinin və beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin OPEK+ formatında əməkdaşlıq məsələsinin əhəmiyyətinə toxunuldu.

## Prezident İlham Əliyev Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktoru Rafael Mariano Qrossini qəbul edib.



Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş direktoru Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurlu olmasına görə dövlətimizin başçısını təbrik etdi. Bildirdi ki, Azərbaycanın bu Hərəkata sədrliyi praktiki xarakter daşıyaraq beynəlxalq sülh və təhlükəsizliyə böyük töhfə verib, Hərəkatın dünyada rolunu daha da gücləndirib.

Rafael Mariano Qrossi ölkəmizlə rəhbəri olduğu agentlik arasında səmərəli əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Rafael Mariano Qrossiyə tədbirdə iştirakına görə minnətdarlığını ifadə etdi, Azərbaycanın Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə əməkdaşlığa böyük önəm verdiyini dedi.

Dövlətimizin başçısı nüvə texnologiyasından dinc məqsədlər üçün istifadənin vacibliyini bildirdi. Bu xüsusda kənd təsərrüfatı, tibb, neft-kimya sahələrində Azərbaycanla agentlik arasında əlaqələrin praktiki əhəmiyyəti qeyd edildi.

Prezident İlham Əliyev nüvə təhlükəsizliyi probleminə toxunaraq Ermənistanda Metsamor Atom Elektrik Stansiyasının fəaliyyət göstərdiyini, onun Azərbaycana, Türkiyəyə, Ermənistana və bütün regiona böyük nüvə təhlükəsi yaratdığını bildirdi, bu stansiyanın köhnə texnologiya ilə çalışdığını, onun ciddi texniki probemlərinin olduğunu diqqətə çatdırdı və Metsamordan qaynaqlanaraq bəzi nüvə materiallarının qanunsuz ticarətinin aparılmasının narahatlıq doğurduğunu vurğuladı.

Görüşdə Nüvə silahlarının yayılmaması haqqında Müqaviləyə bütün dövlətlər tərəfindən riayət edilməsinin vacibliyi bildirildi, bu xüsusda nüvə silahının yaradılması cəhdlərinin beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid yarada biləcəyi ilə bağlı narahatlıq ifadə olundu.

## Prezident İlham Əliyevin adından Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünün iştirakçılarının şərəfinə ziyafət verilib



Martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin şərəfinə ziyafət verilib.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə yeni müavin təyin edilib

Martın 2-də Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova kollektivə təqdim olunub.

Xəyalə Dadaşovanı kollektivə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov təqdim ediblər.

Təqdimat zamanı Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyəti geniş təhlil olunub, mövcud problemlər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Qeyd edək ki, fevralın 28-də Xəyalə Xalıqverdi qızı Dadaşova Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini təyin edilib, eyni zamanda Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti nazir müavini Xəyalə Dadaşovaya verilib. O, Naxçıvana təyinatdan öncə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində çalışıb.

## Naxçıvan şəhərindən olan şəhid ailələri və qazilərlə görüş keçirilib

Martın 2-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhərindən olan şəhid ailələri və qazilərlə görüşüb, onların müraciətləri dinlənilib.

Görüşdə Naxçıvan şəhərindən olan 41 şəhid ailəsi üzvünün və qazinin müraciəti qeydə alınıb.

**“Şərq qapısı”**

## Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya ali təhsil ocağında olub

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev rəsmi qonağı salamlayaraq Naxçıvandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb. Rektor qardaş ölkədə baş verən zəlzələ nəticəsində həlak olanlara başsağlığı verib, yaralılara şəfa diləyib. Qeyd edilib ki, universitetdə 11 fakültə, 43 kafedra, magistratura və doktorantura mərkəzi, 2-si elmi-tədqiqat laboratoriyası olmaqla, 36 laboratoriya fəaliyyət göstərir. Ali təhsil ocağında bakalavr təhsil pilləsində 60, magistratura mərhələsində 42, doktorantura pilləsində 10, rezidenturada 15, dissertantura üzrə isə 32 ixtisaslaşma üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Rektor universitetin professor-müəllim heyətinin mövcud elmi potensialı haqqında danışaraq bildirib ki, ali təhsil ocağı 2021-ci ildə dünyada 2000 ən yaxşı, 2022-ci ildə isə seçilən 1000 universitet sırasına düşməyi bacarıb. Elbrus İsayev diqqətə çatdırıb ki, ali təhsil ocağı beynəlxalq əlaqələr sahəsində qardaş ölkənin 80 universiteti ilə sıx əməkdaşlığa malikdir. Hazırda universitetlər arasında diplomların qarşılıqlı tanınması layihələri barədə razılaşmalar əldə olunub.Vurğulanıb ki, əcnəbi tələbələrin sayına görə ölkə universitetləri arasında seçilən Naxçıvan Dövlət Universitetində sayca üstünlüyü türkiyəli tələbələr təşkil edir.



Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya bildirib ki, ölkəsində baş verən güclü zəlzələ bir daha onu göstərdi ki, biz bütün çətin zamanlarda birləşən və həqiqətən, bir olan xalqıq. Baş konsul universitetdən göstərilən dəstəyə görə rektora xüsusi minnətdarlıq edib.

Görüşdə qarşılıqlı hörmətə, dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə yüksələn xətlə inkişaf etdiyi vurğulanıb, ali təhsil sahəsində də ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi perspektivləri qeyd edilib.Tərəflər bundan sonra da təhsil sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparıblar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Dövlət satınalmaları sahəsində təşkilatların və sahibkarların maarifləndirilməsi diqqət mərkəzindədir

Dövlət satınalmalarında iştirak edən tərəflərin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi seminar keçirib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Aqil Qəribov açaraq dövlət-özəl əməkdaşlığının bir nümunəsi kimi belə görüşlərin əhəmiyyətini vurğulayıb, bu sahədə dövlət tənzimləməsini həyata keçirən qurumlarla əməkdaşlığın iqtisadiyyatın inkişafına töhfə verəcəyini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin və rayon idarələrinin aidiyyəti əməkdaşları üçün təşkil olunan seminarda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Dövlət satınalmalarına nəzarət şöbəsinin müdir müavini Zəminə Əliyeva tədbir iştirakçılarını dövlət satınalmaları



haqqında qanunun müddəaları ilə tanış edib. Bununla yanaşı, tədbir iştirakçıları ilə satınalmanın nəticələri, satınalma müqaviləsinin bağlanması və idarə olunması məsələlərinə də toxunulub.

Seminar müzakirə şəklində davam edib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*30 ilə yaxın müddətdə mənfur xisləti qonşularımız tərəfindən işğalda saxlanılan torpaqlarımızın Vətən müharibəsində azad edilməsi tarixi ədalətin bərpası ilə bərabər, həm də təbii zənginliklərimizin xilası ilə nəticələndi. Bu tarixi qələbə, eyni zamanda erməni vəhşiliyini, barbar xislətini bütün çılpaqlığı ilə dünyaya tanıtdı. İllərdir, təkcə torpaqlarımızı deyil, həm də onun yeraltı və yerüstü sərvətlərini talayaraq məhv edən ermənilər bununla Azərbaycanın təbiətinə də necə qənim kəsildiklərini sübut etdilər. İndi isə reallıq dəyişib. İşğaldan azad olunmuş ərazilərdə yeni infrastruktur layihələri ilə yanaşı, ekoloji tədbirlərin həyata keçirilməsi də geniş vüsət alıb. Bir neçə gün bundan əvvəl media nümayəndələri kimi Füzuli-Cəbrayıl-Zəngilan istiqamətində səfərimizdə də məqsəd bu sahədə həyata keçirilən tədbirlərlə yerində tanış olmaq idi.*

# İşğaldan azad olunmuş torpaqlarımızda ekosistem yenidən bərpa olunur *(reportaj)*

İlk dayanacağımız Cəbrayıl rayonu ərazisində yeni salınmış “Dostluq meşəsi” ərazisi oldu. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məsul şəxslərindən aldığımız məlumatlardan aydın oldu ki, erməni işğalı dövründə rayonda mövcud 4629 hektar meşə fondu torpağının 2497 hektarında meşə sahələri olub. Amma işğal dövründə 2320 hektar meşə sahəsi erməni vandalları tərəfindən məhv edilib.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə-Qarabağ Tədbirlər Planına uyğun olaraq bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılıb. 2022-ci il oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”,







“Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin layihəsi ilə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyranın buraxılması mərasimində də iştirak ediblər. Oktyabrın 20-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimi keçirilib, əraziyə 15 baş ceyran buraxılıb. Azərbaycan və Türkiyə prezidentlərinin ərazidə ağac əkməsindən sonra bu təbii sərvətlərimizi zənginləşdirmək ənənəsi bu gün də davam etdirilir. Azərbaycan ərazisində ceyran populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi, həssas ekosistemlərin bərpası, reintroduksiya məqsədilə görülən tədbirlər doğma Qarabağımızın qiymətli flora və fauna növlərinin qorunması və zənginləşdirilməsinə xidmət edir. Bu, milli sərvətlərimizə dövlət qayğısı, ölkəmizin işğaldan azad olunmuş ərazilərində də ekoloji siyasətini uğurla həyata keçirməsi deməkdir.

Nazirliyin nümayəndəsi Cabbar Qəribov bildirdi ki, artıq xeyli vaxtdır ki, Cəbrayıl rayonu ərazisində ermənilər tərəfindən məhv edilmiş meşə ərazilərinin bərpası işləri həyata keçirilir. Bu tədbirlər, əsasən, Azərbaycan və Türkiyə respublikalarının müvafiq qurumları tərəfindən aparılır. Birgə fəaliyyətin nəticəsində bu ərazidə “Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi”, “Ağıllı tingçilik” kompleksinin və “Dostluq meşəsi”nin yaradılması layihəsinin icrasına uyğun olaraq 73 hektar ərazidə “Dostluq meşəsi” və ona bitişik ərazidə 63 mindən çox yerli və Türkiyədən gətirilmiş ağac növlərindən istifadə olunmaqla əkin işləri aparılıb. Bu layihədə türkiyəli mütəxəssis və meşəçilərin təcrübəsindən istifadə edilib. Eyni zamanda ağac əkilməsi üçün terrasların salınmasında Türkiyə tərəfindən verilən texnikalardan istifadə olunub. Həmçinin türkiyəli mütəxəssislər azərbaycanlı həmkarları üçün xüsusi treninqlər keçiblər. Hazırda “Dostluq meşəsi” ilə yanaşı, 8 hektar ərazidə müasir “Ağıllı tingçilik” sahəsi də yaradılır. Burada Türkiyə təcrübəsi əsasında tinglər yetişdiriləcək. “Ağıllı tingçilik” ərazisində ildə 2 milyon ting yetişdiriləcək ki, bu tinglər də həm Zəngəzur, həm də bütün Qarabağ ərazisində meşəbərpa və meşəsalma işlərində istifadə ediləcək. Öyrəndik ki, salınacaq meşələrdə həm yerli, həm də Türkiyədən gətirilmiş ağac növlərindən geniş istifadə ediləcək.

Hazırda “Dostluq meşəsi” ərazisində həm yerli, həm də Türkiyədən gətirilmiş çinar, Eldar şamı, göyrüş, qızıl şam, dağdağan, yalançı akasiya, Kipr akasiyası, fıstıq şamı və sair ağac növləri əkilib. Səfər zamanı media nümayəndələrinə o da bildirildi ki, ceyranların dayanıqlı populyasiyasının yerində öyrənilməsi və formalaşdırılmasına nəzarət olunması məqsədilə həmin ərazilərdə mütəmadi monitorinqlər keçirilir. Ərazi ilə tanışlıqdan sonra bu işə öz töhfəmizi vermək istəyi ilə biz jurnalistlər də “Dostluq meşəsi” ərazisində ağacəkmə aksiyasında iştirak etdik.



Növbəti dayanacağımız isə Zəngilan rayonu ərazisindəki Oxçuçayın Azərbaycan ərazisindən başlayan Sayıflı kəndini ziyarət etmək və burada nazirliyin erməni ekoloji terroruna məruz qalmış ekosistemin bərpası ilə bağlı həyata keçirdiyi işlərlə, nəzərdə tutulan layihələrlə tanış olmaq idi. Yolboyu hər addımda erməni vəhşiliklərinin izlərini görmək mümkün idi. Dağıdılmış evlər, xarabalığa çevrilmiş yaşayış məntəqələri heç zaman onların olmayan torpaqlara göstərdiyi münasibətin acı nəticələri idi. Şükürlər olsun ki, bu gün artıq biz o torpaqlara qayıdırıq. Ərazilərdə həyata keçirilən minatəmizləmə işləri, yolboyu hərəkət edən yük maşınlarımız, yeni çəkilən elektrik xətləri, yenidən qurulan avtomobil yolu və körpülər yaxın gələcəkdə gerçəkləşdiriləcək məskunlaşmanın işartıları kimi qeyri-adi sevinc, qürur doğururdu.

Sayıflı kəndinə, daha doğrusu, kəndin xarabalıqlarına yaxınlaşırıq. Ərazidə Oxçuçay üzərində yerləşəcək su elektrik stansiyasının inşaat işləri aparılır, böyük diametrli boruların daşınaraq burada qaynaq edildiyini görürük. Bir az da getdikdən sonra Oxçuçayın kənarında maşından enirik. Ətraf uca dağlarla əhatələnib. Çayın düz kənarında bir qurğu diqqətimizi çəkir. Bu, hidrometeoroloji müşahidə şəbəkəsidir.

Onu da xatırladaq ki, 330 kilovoltluq Cəbrayıl yarımstansiyası Qarabağda tikilən ən böyük yarımstansiyadır, özü də beynəlxalq əhəmiyyət daşıyır. İşğaldan azad olunmuş ərazilərdə tikilən “Xudafərin”, “Qız qalası” stansiyaları Oxçuçay üzərində tikilən kiçik su elektrik stansiyalarının istehsal etdiyi enerjini məhz bu yarımstansiya transfer edəcək. Bu yarımstansiya Naxçıvana və oradan da Avropa ölkələrinə elektrik enerjisini ötürməyə imkan verəcək. Həmin yarımstansiya isə Naxçıvanın Azərbaycan enerji sisteminə qoşulmasını təmin edəcək. Bu, eyni zamanda Naxçıvanın enerji təhlükəsizliyi baxımından müsbət rol oynayır.

Məlumat verildi ki, ölkə başçısı cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərlə bağlı mühüm tapşırıqlarından biri də məhv edilmiş ekosistemin bərpa olunmasıdır. Xüsusilə görülən və icrası davam etdirilən əsas işlərdən biri işğaldan azad edilmiş çayların, su mənbələrinin təmizliyinə, keyfiyyətinə, su sərfinə və temperaturuna nəzarət etmək məqsədilə hidroloji stansiyaların quraşdırılmasıdır. Bu tipli stansiyalar çaylardakı suyun səviyyəsini, temperaturunu, keyfiyyətini, elektrik keçiriciliyini, çirkləndiricilərin ümumi dərəcəsini, eləcə də radiasiya fonunu ölçür və nəticələr Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hidrometereologiya xidmətinin situasiya mərkəzinə ötürülür. Mərkəzdə bu məlumatlar təhlil edilir. Oxçuçay üzərində qurulmuş bu avtomat radioloji və hidroloji stansiya da ən müasir qurğulardandır. Stansiyanın üstünlüklərindən biri də məlumatların hər 10 dəqiqədən bir mərkəzi serverə ötürülməsi və təhlil etməyə imkan verməsidir. Çirklənmə qeydə alınarsa, dərhal monitorinqlər keçirilir və müvafiq tədbirlər görülür.

Məlumat verildi ki, ümumiyyətlə, Şərqi Zəngəzur İqtisadi rayonunda Azərbaycanın transsərhəd çayı olan Oxçuçay ən çox çirklənməyə məruz qalan çaydır. Hazırda Oxçuçayda üç məntəqə üzrə davamlı monitorinqlər aparılmaqdadır. Monitorinqin nəticələrinə görə çayda ağır metalların miqdarı normadan çox artıqdır. Buna səbəb isə Ermənistan tərəfindən mütəmadi olaraq dağ-mədən filiz saflaşdırma kombinatlarının tullantı sularının təmizlənmədən Oxçuçaya axıdılmasıdır. Bu, bir daha onu göstərir ki, erməni xisləti dəyişən deyil və bu millətin sivil standartlarla yaşamaq potensialı yoxdur.

Onu da öyrəndik ki, yaşıllıqların və meşə zolaqlarının salınması və bərpası Zəngilan rayonunda da uğurla həyata keçirilir. İndiyədək rayonun giriş hissəsində 55 hektar torpaq sahəsində 33 min 300-dən çox müxtəlif növ ağac tingləri əkilib. Həmçinin bu yaşıllıqların suvarılmasının təmin edilməsi məqsədilə 30 hektar sahədə damcılı suvarma şəbəkəsi qurulub və hazırda bu sahədə işlər davam etdirilir.

*Yazın gəlişinə çox az qalıb. Bu isə o deməkdir ki, işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən işlər daha da genişlənəcək. İşlər isə çoxşaxəlidir. Çünki Azərbaycan dövləti məhv edilmiş rayon və kəndlərimizi kərpic-kərpic yenidən qurur.*

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***
***Naxçıvan-Füzuli-Cəbrayıl-Zəngilan-Naxçıvan***

## Tibbi aksiya keçirilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Sədərək Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsdə kadr çatışmazlığı nəzərə alınaraq uşaq əhalisinin dərindən müayinə və müalicəsinin təmin edilməsi məqsədilə tibbi aksiya keçirilib.

Aksiyada Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası publik hüquqi şəxsin ixtisaslı əməkdaşlarından ibarət həkim briqadası iştirak edib. Aksiya zamanı pediatriya üzrə 215, nevrologiya üzrə 57, oftalmologiya üzrə 54, kardiologiya üzrə 37 olmaqla, ümumilikdə, 363 rayon sakininə ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələr təşkil edilib. Xəstələrdə aşkar olunan diaqnozlara uyğun Sədərək Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsdə dispanserizasiya işi aparılıb.

Yerində müayinə və müalicələri mümkün olan xəstələrin müayinə edilərək müalicəsi təmin edilib, daha dərin müayinəyə ehtiyacı olanlar isə Naxçıvan şəhərində uyğun xəstəxanalara yönləndirilib. Dərindən müayinəyə ehtiyacı olan şəxslər barədə Rayon Mərkəzi Xəstəxanasının baş həkiminə məlumat verilib və müalicələrinin nəzarətdə saxlanılması haqqında Səhiyyə Nazirliyi tərəfindən tapşırıq verilib.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva tərəfindən Sədərək rayonunda əlilliklə əlaqədar olaraq 63 rayon sakini qəbul edilib. Onların əlilliyinin təyin edilməsi ilə əlaqədar şikayətləri dinlənilərək sənədləri araşdırılıb. Müvafiq xəstələr Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin birgə komissiyasına dəvət olunub, digərləri isə aidiyyəti tibb müəssisələrinə yönləndirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Viktorinanın qalibləri müəyyənləşib



Naxçıvan Şəhər Təhsil Şöbəsi və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı “Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda viktorina keçirilib.

4 seçim turu və 1 final mərhələsi üzrə aparılan viktorinada 17 məktəb üzrə 67 şagird iştirak edib. Seçim turu üzrə 4 məktəb viktorinanın final turunda iştiraketmə hüququ qazanıb. Viktorinada iştirakçılara Naxçıvan şəhər 14 nömrəli məktəbin şagirdləri tərəfindən şeir və musiqi ifa olunub.

Viktorinanın yekun nəticəsinə əsasən 9 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. 8 nömrəli tam orta məktəbin komandası ikinci, 15 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Qalib olan məktəblər təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Fevral ayında Naxçıvan Muxtar Respublikasında vergi daxilolmaları 57 faiz artıb



Naxçıvan Muxtar Respublikasında büdcəyə vergi daxilolmalarında müsbət dinamika müşahidə olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin xətti ilə 2023-cü ilin yanvar-fevral aylarında büdcəyə 22,4 milyon manat vergi daxil olub. Ötən ilin eyni dövrü ilə müqayisədə vergi daxilolmaları 23,9 faiz artıb. Proqnoz 116,7 faiz səviyyəsində icra olunub.

2023-cü ilin fevral ayında vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 57 faiz və ya 4,5 milyon manat artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Gənclərimiz türk soydaşlarımıza əsl könül həmdəmi oldular

*Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələdən zərərçəkmiş insanlara yardım məqsədilə qardaş ölkəyə yollanan Azərbaycanın könüllü gənclərinin bir qrupu missiyalarını uğurla tamamlayaraq geri dönüb. Təbii fəlakətdən zərər görmüş Kahramanmaraş, Hatay, Adıyaman və Malatyada zərərçəkənlərə kömək edən könüllülərimizdən 26 nəfəri Naxçıvana qayıdıb. Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə qardaş ölkəyə yollanan könüllülərimiz göstərdikləri xidmətlərin sahəsini genişləndirib, xüsusilə də təbii fəlakətdən zərərçəkən uşaqlara dəstək üçün müxtəlif xidmətlər həyata keçirirlər. Azərbaycan könüllüləri artıq 2 həftəyə yaxındır ki, təbii fəlakət zamanı uşaqların keçirdiyi sarsıntıları, yaşadıqları iztirabları minimuma endirmək üçün hər gün yüzlərlə uşağa qayğı və psixoloji dəstək göstərir, eləcə də uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə müxtəlif oyunlar və digər əyləncəli-maarifləndirici fəaliyyətlər təşkil edirlər. Həmçinin gənclərimiz tərəfindən uşaq və ana mərkəzi kimi fəaliyyət göstərən çadırlar qurulur və bu mərkəzdə uşaqlara kino və cizgi filmlərinin göstərilməsi üçün də şərait yaradılır. Muxtar respublikadan olan könüllülərlə görüşüb onlarla həmsöhbət olduq.*





**Məhəmməd Huseynli** bildirdi ki, onlar Türkiyənin zəlzələdən zərər görən ən böyük şəhərlərindən biri olan Kahramanmaraşda olublar: “Şəhərə daxil olan zaman zəlzələnin yaratdığı fəlakətləri gördük. Zəlzələ zamanı xəsarət almış şəxsləri qida, tibbi ləvazimat, isti geyim, çadırlarla təmin edib, onların bir çox ehtiyaclarının ödənilməsinə köməklik göstərdik. Balaca uşaqların psixoloji vəziyyətinin yaxşılaşdırılması üçün oyun çadırları qurub onlarla birgə oyunlar oynayırdıq. Həmin vaxt mənim xatirimdə iz buraxan hadisələrdən birini heç unuda bilmirəm. Könüllü yoldaşımızla birlikdə idik. Balaca uşaq mənə yaxınlaşaraq əlini uzatdı. Öncə elə düşündüm ki, o bizimlə salamlaşmaq istəyir. Sən demə, əlinin içərisindəki şirniyyatı mənimlə bölüşmək istəyirmiş... Onu qəbul etdim, amma gözlərim doldu. Çünki bir neçə gün əvvəl dağıntılardan xilas olmuş bir uşağın bunu etməsi çox təsiredici



idi. Bölgənin bir neçə yerində uşaqlar üçün hədiyyələr payladıq. Bundan sonra da türkiyəli qardaşlarımızın daim yanında olacağıq, onlara hər zaman yardım etməyə hazırıq”.

***Elmar İsgəndərov*** deyir ki, qardaş ölkədə baş verən zəlzələni səhər saat 7-də radio vasitəsilə eşidib: “İlk işim türk tələbə yoldaşlarımla əlaqə saxlayıb məlumat almaq və kömək üçün onların qruplarında iştirak etmək oldu. Sonra zəlzələ zonasına könüllü gənclərin gedəcəyini öyrəndim və düşünmədən Naxçıvan Muxtar Respublikası Gənclər Fondu ilə əlaqə yaradıb, məni də həmin könüllü gənclər sırasına yazmalarını xahiş etdim. Fevral ayının 11-i səhər saat 5-də yola düşdük və bir gün sonra Türkiyənin Maraş şəhərində idik. Zəlzələnin törətdiyi faciələri isə yolboyu bütün dəhşətləri ilə görə bilirdik. Malatyanın Gölcük məntəqəsində bircə dənə də olsun, salamat bina qalmamışdı. Hətta ən şiddətli müharibələr belə bu qədər qorxunc mənzərələr yarada bilməzdi. Könüllü fəaliyyətimiz humanitar yardımlar olmaqla çadırların qurulması, qida, ərzaq və geyimlərin paylanması, o cümlədən digər köməkləri əhatə edirdi. Həmçinin bir neçə gün əhali üçün isti yeməklərin hazırlandığı mətbəxdə də fəaliyyət göstərdim. Bundan əlavə, Kahramanmaraşın Erkenezli (İstasyon) kəndində də olaraq həmin yaşayış məntəqəsinin sakinləri üçün aparılan yardımların hazırlanması və paylanmasında iştirak etdim. Kahramanmaraşda olduğumuz günlər ərzində, demək olar ki, hər gün irili-xırdalı yeraltı titrəyişlər olurdu”.

O da heç vaxt unutmayacağı hadisə ilə üzləşib: “Növbədə olduğum günlərdə 50 yaşlarında bir xanımın çadırlarımızın arxasındakı bina dağıntılarını hər gün ziyarət etməsi diqqətimi çəkmişdi. Bir gün həmin xanıma yaxınlaşıb salam verdim. Bir şey deməyimi gözləmədən, mənə iki oğlunun olduğunu və hər ikisinin də həmin dağıntı altında qaldığını dedi. Bunu deyərkən gözləri doldu. Deyəcək söz tapmadım. Bu hadisə orada ilk deyildi. Kahramanmaraşlı olan insanların bir çoxu ilə söhbət etmişdik və əksəriyyəti zəlzələdə hansısa yaxınını itirmişdi. Fevral ayının 25-i isə komandamızın bir qrup üzvü ilə birlikdə işlərimizi yekunlaşdırıb Vətənə qayıtdıq. Bir tərəfdən göstərdiyimiz köməyə görə nə qədər qürurlu olsaq da, digər tərəfdən zəlzələ zonasında çəkilən üzüntüləri unutmaq mümkün deyil”.



Ölkə Prezidentinin xalqa müraciətindən sonra qardaş ölkəyə yollandıqlarını deyən ***İslam Əlisoy*** da Kahramanmaraş şəhərində olub: “Zəlzələ zonasında Azərbaycan könüllülərinin nəyə qadir olduğunu fəalliyyətimizlə sübut etdik. Ora çatdığımız ilk gün apardığımız çadırları qurduq. Fəaliyyətimiz ondan ibarət idi ki, qardaş ölkə üçün göndərilən yardımların boşaldılması, çeşidlənməsi və zərərçəkmiş əhaliyə paylanılmasına köməklik edirdik. Əlavə olaraq TÜGVA (Türkiyə Gənclik Vəqfi) könüllüləri ilə birlikdə ucqar kəndlərdə yaşayan əhaliyə qida məhsullarının çatdırılmasında iştirak edirdik. Kahramanmaraşdan əlavə digər şəhərlərə gedərək çadır qurulmasında köməklik göstərirdik. Bundan əlavə, hər gün axşam saatlarında özümüzlə birlikdə müxtəlif oyuncaqlar, meyvə suları və sair götürərək məsciddə qalan uşaqları görməyə gedirdik. O uşaqların Azərbaycan könüllülərini görəndə üzlərindəki o təbəssüm bizə yorğunluğumuzu unutdururdu. Orada Azərbaycanın hər bölgəsindən gəlmiş gənc könüllüləri görmək bizi daha da ruhlandırırdı. Buradakı fəaliyyət könüllü kimi mənim üçün çox qürurverici oldu”.

***Əli Babayev*** də Türkiyənin Kahramanmaraş şəhərində baş vermiş zəlzələdən zərərçəkən türk qardaşlarımıza yardım etmək üçün səfərbər olan könüllü gənclərdəndir. 21 yaşlı bu gənc 15 gün ərzində Kahramanmaraş şəhərində səyyar yardımlar göstərərkən şahid olduğu hadisələrdən, yardım fəaliyyətindən bəhs edir: “Qardaş ölkəmizdə baş verən bu təbii fəlakət hər birimizin kədərinə səbəb oldu. Cənab Prezidentimizin çağırışından dərhal sonra Naxçıvan Muxtar Respublikası Gənclər Fonduna müraciət etməyi qərara aldım. Mən və yoldaşlarımın bir qismi Kahramanmaraş şəhərində fəaliyyət göstərirdik. Burada zərərçəkən əhaliyə geyimlərin, qidaların paylanması, çadırların qurulması kimi işlərdə səylə çalışdıq. İnsanların evləri dağılsa da, soyuqda qalsalar da, baş verən belə fəlakət qarşısında necə mərdanə durduqlarını gördüm”.

Könüllü gəncimiz deyir ki, orada gördükləri yaddaşına həmişəlik həkk olunub, uzun müddət unutmayacaq: “İnsanların vaxtilə yaşadığı binanın altında öz əzizlərini çarəsiz halda gözləməsini görmək çox dəhşətli idi. 15 gün ərzində çox hadisəyə şahid oldum. Heç birini unuda bilmərəm, əlbəttə, ancaq dağıntıların altından sağ çıxmış bir qadınla həmsöhbət oldum. Zəlzələnin şiddətini bizə təsvir etməyə çalışarkən deyirdi ki, sanki bir qüvvə insanı sağa-sola çırpırdı. Zəlzələ zamanı övladını götürüb evin balkonundan çölə atmağı bacarmışdı. Dağıntı altından çıxarılmış yaşlı bir dayıya yaxınlaşanda məni qucaqlayıb hönkürərək ağlamağa başladı. Bu hadisələri heç vaxt unutmayacağam. Orada gördüklərimiz çox ağır olsa da, qürurluyuq ki, qardaşlarımıza az da olsa, kömək göstərə bildik”.

Rezident həkim ***Sona Əlizadə*** zəlzələ sonrası yardım üçün ora gedən könüllü gənclərdən biridir: “Zərərçəkən türk vətəndaşlarının sağlamlığının qeydinə qalmaq məqsədilə biz həkimlər də qardaş ölkəyə getmişdik. 15 gün ərzində Kahramanmaraş şəhərində çalışdıq. Bütün tibb işçiləri lazımi tibbi avadanlıqlarla təchiz olunmuşduq. Xəstələrə səyyar formada xidmət göstərirdik. İnsanlar o qədər ağır vəziyyətdə olmalarına baxmayaraq, bizə – azərbaycanlı könüllülərə və həkimlərə böyük rəğbət bəsləyirdilər. Orada qaldığımız günlər ərzində insan övladının çəkdiyi böyük əziyyətlərin şahidi olduq. Bu, əsrin fəlakəti idi. Fikrimcə, həm də hər birimizə böyük bir dərs idi. Bu, sevdiklərimizin, həyatımızın və sahib olduqlarımızın dəyərini dərk etməli olduğumuzu xatırlatdı. Kahramanmaraşda çox insanla ünsiyyətdə olduq, söhbətlər etdik. Hamısının ayrı-ayrılıqda ürək dağlayan hadisədən danışırdı. Orada yaşanan bir hadisəni isə ömürboyu unuda bilmərəm. Bir dəfə dedilər ki, çadırlardan birində bir xanım var, bir neçə gün öncə dağıntılar altından çıxarılıb. Ancaq övladını xilas edə bilməyiblər və dünyasını dəyişib. Üstündə qat-qat yorğanlar, ətrafında soba olsa da, qızdırma içərisindədir, temperaturu düşmür. Xanımın temperaturunu ölçəndə gördüm ki, temperatur normaldır, hər şey qaydasındadır. Buna baxmayaraq, o, dəhşətli dərəcədə titrəyirdi. Ağlayaraq sayıqlayırdı ki, övladım qarın altındadır, donur. Mən ilk dəfə



idi, qəlbinə övlad dağı çəkilən bir ana ilə rastlaşırdım. Övladının soyuq qış gecəsində, dağıntılar altında həlak olması onun psixologiyasını dərindən sarsıtmışdı. Ananın ürək yanğısına, hıçqırtılarına dözmək mümkün deyildi. Ona xidmət göstərərkən biz də göz yaşlarımızı saxlaya bilmirdik. Güman ki, ömrümüzün sonunacan o günləri də unutmayacağıq. Arzumuz odur ki, Allah bir daha heç kimə bu cür acılar, fəlakətlər yaşatmasın”.

*Gənc müsahiblərimizin söhbətlərindən də məlum oldu ki, əsrlərdir, xalqımızın geninə hopmuş, milli-mənəvi dəyərlərində öz əksini tapmış humanist ideyalar qardaş ölkənin düşdüyü bu ağır və çətin vəziyyətdə də özünü göstərdi, necə deyərlər, Vətənimizin qədir-qiymət bilən insanları əllərindən gələni əsirgəmədən hər bir köməyi edərək Türkiyə-Azərbaycan dostluğunu bir daha dünyaya nümayiş etdirdi. Arzu edirik ki, min illərin sınağından çıxmış bu həmrəylik hər bir çətinliyə qalib gəlsin, bir-birindən güc alan hər iki qardaş ölkənin ay-ulduzlu bayraqları daim azad Vətən səmalarında dalğalansın.*

**Bülbül QULİYEVA**
**Aysel YUSİFZADƏ**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 16 mart 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin ilkin satış qiyməti (manatla) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti 25 faiz güzəştlə(manatla) | İlkin satış qiymətinin10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1. | OPEL ANTARA | Minik | 2012 | 1 | 15000.0 | 11250.0 | 1500.0 |
| 2. | OPEL VEKTRA | Minik | 2008 | 1 | 10000.0 | 7500.0 | 1000.0 |
| 3. | NAZ LİFAN LF7132-320 | Minik | 2010 | 1 | 6000.0 | 4500.0 | 600.0 |
| 4. | Vaz 2121 | Minik | 1989 | 1 | 3000.0 | | 300.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 13 mart 2023-cü il tarixədək ödənilməlidir. Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır.

Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- müvafiq formada sifariş;*
*- ödəniləcək behin qəbzi;*
*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 16 mart 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

***Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvanda döyüş gecəsi

İyun ayında Naxçıvanda kikboksinq üzrə döyüş gecəsi keçiriləcək. Bunu tanınmış türk aparıcı Tarık Sayın ötən gün türk mətbuatına verdiyi açıqlamada dilə gətirib: “Naxçıvan mənim ikinci Vətənimdir. Orada bir çox istedadlı gənc var. Belə mötəbər qala gecəsini keçirməyimizdə məqsəd naxçıvanlı idmançıları dünya idman ictimaiyyətinə tanıtmaqdır”.

Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev və tanınmış naxçıvanlı idmançı Etibar Qəribovla bu məsələ ilə bağlı danışdığını da qeyd edən Tarık Sayın gələcək aydan etibarən hazırlıqlara başlayacaqlarını da vurğulayıb.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Səfərov Sərxan İslam oğlunun Naxçıvan şəhəri Əliabad qəsəbəsi 27/1C ünvanında yerləşən torpaq sahəsinin 25.05.2022-ci il tarixli A-029653 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Ələkbərov Elçin Mikayıl oğlunun adına olan avtomobilin 67 BJ 941 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 166